**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri**

**akademik Ramiz Mehdiyevə**

**Hörmətli Ramiz müəllim,**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci il üçün illik fəaliyyətinin nəticələri barədə hesabatı **Sizə** ünvanlayırıq.

Qoşma: 14 (ön dörd) vərəq

**Hörmətlə,**

**Himayəçilər Şurasının sədri** **Kamal Abdullayev**

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin**
**2017-ci il üzrə fəaliyyətinin yekunları barədə**
**HESABAT**

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müasir Azərbaycan bu gün dünyanın ən mötəbər beynəlxalq təşkilatları, ictimai birlikləri tərəfindən hüquqi, demokratik dəyərlərə sahib, dinamik inkişaf edən və regionun ən güclü iqtisadiyyatına sahib olan ölkə kimi tanınır. Mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkanda yerləşən Azərbaycanda təşəkkül tapmış davamlı tolerantlıq mühiti cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və ictimai-siyasi sabitliyi şərtləndirən danılmaz tarixi nailiyyətdir. Etnik, dini, mədəni mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları ölkəmizdə mövcud olan söz, vicdan, dini etiqad azadlığından, dövlət-din münasibətlərindən, multikultural dəyərlərdən və demokratik-hüquqi şəraitdən lazımınca yararlanmaqdadır.

Hazırda dünya birliyində layiqli yerini tutan ölkəmiz əksər nüfuzlu beynəlxalq və regional təşkilatlarda təmsil olunur, Beynəlxalq Humanitar Forumlara, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna, Mədəniyyətlərarası Dialoq Forumlarına, UNESCO-nun və İSESCO-nun mötəbər tədbirlərinə ev sahibliyi edir. Bilavasitə ölkə Prezidentinin göstərdiyi diqqət və qayğının nəticəsidir ki, son illərdə dünya dinləri nümayəndələrinin təmsil olunduğu ali məclislər - MDB müsəlmanları Məşvərət Şurası, Qafqaz xalqları Ali Dini Şurasının iclasları, Dünya dini liderlərinin beynəlxalq sammiti Bakıda keçirilir və bu gün Azərbaycan beynəlxalq aləmdə dialoqun, multikulturalizmin, sivilizasiyalararası əməkdaşlığın örnək nümunəsi kimi qəbul edilir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın dəstəyi ilə təbliğ olunan və dünyaya multikulturalizm nümunəsi kimi təqdim edilən Azərbaycanın tolerantlıq modeli sivilizasiyalararası dialoqun və mədəni əlaqələrin inkişafına, dəyərlərin təşviqinə və təkamülünə öz töhfəsini verməkdədir. Azərbaycan hakimiyyətinin müasir tolerantlıq siyasəti yalnız ölkə hüdudları ilə məhdudlaşmır. Heydər Əliyev Fondunun nəinki Şərqdə, habelə Avropa ölkələrində dini abidələrin bərpa və təmir olunması sahəsində gördüyü işlər buna bariz nümunədir.

10 yanvar 2017-ci il tarixində 2017-ci ili Azərbaycan Respublikasında "İslam Həmrəyliyi ili" elan edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisələrdən biri oldu. "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasını təmin etmək məqsədi ilə Tərəfinizdən təsdiq olunan "Tədbirlər Planı"nda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin üzərinə düşən vəzifələr vaxtında icra edilmişdir.

Ölkə başçısının çıxışlarında hər zaman qeyd etdiyi kimi, multikulturalizmin alternativi faşizmdir, antisemitizmdir, şovinizmdir, müharibədir, terrordur, qarşıdurmalardır. Qərbin multikulturalizm kimi yüksək əxlaqi, mədəni və insani dəyərlərdən uzaqlaşdığı bir vaxtda ölkəmizdə bu mənəvi dəyərlərə verdiyiniz önəm Azərbaycanı dünya multikulturalizminin örnək modeli olaraq tanıtmaqdadır.

Həm ölkə daxilində, həm də xarici ölkələrdə 2017-ci il ərzində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən Azərbaycan multikulturalizmi modelini təbliğ edən, onun elmi, siyasi, hüquqi və sosial əsaslarını göstərən, tolerantlıq və birgəyaşayışın önəmini vurğulayan, terroru lənətləyən və onun multikultural cəmiyyətə vurduğu ziyanları əsaslandıran bir çox konfranslar, dəyirmi masalar və seminarlar təşkil olunmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər ölkədaxili və xarici ölkələr üzrə qruplaşdırılaraq diqqətinizə çatdırılır:

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci il ərzində fəaliyyətinə dair

# HESABAT

## I bölmə
## Konfranslar, Dəyirmi masalar, Seminarlar, Müsabiqələr, Təqdimatlar

### Ölkə daxilində:

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tapşırığın icrası üzrə məlumatlar Tarix və məkan | Tədbirin keçirilmə forması |
|---|---|---|---|---|
| **1.** | Holokost faciəsi ilə bağlı anım tədbiri | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu (BF) | 27 yanvar, BBMM | Dəyirmi masa |
| **2.** | "Terror multikulturalizmə qarşı: Xocalı soyqırımı-25" | BBMM | 23 fevral, BBMM | Anım tədbiri |
| **3.** | "Azərbaycan multikulturalizmi modelinin tədqiqi, təbliği və tədrisi sahəsində qarşıda duran vəzifələr" mövzusunda müşavirə | BBMM, Təhsil Nazirliyi, Bakı Mühəndislik Universitetinin "Azərbaycan multikulturalizmi" Elm-Tədris Mərkəzi | 10 mart, Bakı Mühəndislik Universiteti | Müşavirə |
| **4.** | Azərbaycanda səfərdə olan, antisemitizm və islamofobiyaya qarşı mübarizə aparan yəhudi və müsəlman qadınlardan ibarət "Salaam Şalom Qardaşlığı" təşkilatının üzvləri ilə görüş | BBMM | 13 mart, BBMM | Dəyirmi masa |
| **5.** | "İslam həmrəyliyi - zamanın çağırışı" adlı beynəlxalq konfrans | BBMM, Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) | 15 mart, Bakı | Beynəlxalq konfrans |
| **6.** | "Terror multikulturalizmə qarşı: 31 Mart- Azərbaycanlıların Soyqırımı Günü" adlı seminar | BBMM, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu | 30 mart, BBMM | Daimi Elmi Seminar |
| **7.** | "İslam tarix, fəlsəfə və hüquq ensiklopedik lüğət" kitabının təqdimatı | BBMM | 21 aprel, BBMM | Təqdimat |

| | | | | |
|---|---|---|---|---|
| **8.** | “Müasir Azərbaycan cəmiyyətində multikultural ənənələrin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu” mövzusunda seminar | BBMM | 24 aprel, BBMM | Metodik seminar |
| **9.** | “Multikulturalizmin aktual məsələləri” mövzusunda elmi konfrans | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA), BBMM, | 27 aprel, DİA | Elmi konfrans |
| **10.** | “Azərbaycanda yaşayan xalqların atalar sözləri və deyimləri” adlı kitabının təqdimatı | BBMM | 28 aprel, BBMM | Təqdimat |
| **11.** | “Azərbaycanda multikulturalizm” biblioqrafiya kitabının təqdimatı | BBMM, Azərbaycan Milli Kitabxanası | 1 may, BBMM | Təqdimat |
| **12.** | IV Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycana səfərə gələn ABŞ rəsmilərindən (Los-Anceles Xristian Dini Mərkəzinin rəhbəri, yepiskop Xuan Karlos Mendez, Aydaho Ştatının senatoru Marv Hagedorn, Los Ancelesdəki Kral Fahad Məscidinin dinlərarası proqramın direktoru Mahomed Xan, ABŞ-ın Kolumbiya Ştatının Vaşinqton Hüquq Assosiasiyasında məsləhətçi Janna Skot, ABŞ Prezidentinin təyin etdiyi milli və yerli könüllü cəmiyyətlər xidmətinin səlahiyyətlisi Hyepin İm, Arizona ştatının keçmiş senatoru Karlayl Beqay, Pakistan-Amerika Məsələləri Şurasının nümayəndəsi Adnan Khan) ibarət nümayəndə heyəti ilə görüş | BBMM | 4 may, BBMM | Dəyirmi masa |
| **13.** | 2017-ci ildə ölkəmizdə keçirilən 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Heydər Əliyev şəxsiyyəti və Azərbaycanda dinlərarası harmoniya” adlı bölmə müzakirələri | BBMM, DQİDK, Mədəniyyət və Turizm Nazirliyi | 6 may, Bakı | Qlobal Forum, bölmə müzakirəsi |
| **14.** | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə “Qloballaşma, dayanıqlı inkişaf və mədəni müxtəliflik” mövzusunda təqdimat | BBMM | 8 may, BBMM | Mühazirə-təqdimat |
| **15.** | 1918-ci il may ayının 28-də elan edilən Azərbaycanın Müstəqillik günü ilə bağlı tədbir | BBMM | 26 may, BBMM | Dəyirmi masa |

| | | | | |
|---|---|---|---|---|
| **16.** | “İslam Həmrəyliyi İli” “Multikulturalizm İli”nin məntiqi davamı kimi” adlı konfrans | İsmayıllı Rayon İcra Hakimiyyəti, BBMM, BF | 2 iyun, İsmayıllı | Elmi-praktik konfrans |
| **17.** | Azərbaycana səfərə gələn italyan-polyak əsilli tanınmış araşdırmaçı- jurnalist, dünya şöhrətli səyyah Yasek Edvard Palkeviçlə görüş | BBMM | 5 iyun, BBMM | Görüş |
| **18.** | 15 iyun – Milli Qurtuluş Gününə həsr olunmuş dəyirmi masa | BBMM | 14 iyun, BBMM | Dəyirmi masa |
| **19.** | Avropa Şurasının Milli Azlıqların Müdafiəsi Haqqında Çərçivə Konvensiyasinın Məsləhət Komitəsi 3-7 iyul 2017-ci il tarixlərdə Azərbaycana səfəri çərçivəsində Azərbaycanda yaşayan etnik qrupların rəhbərləri və üzvləri ilə görüş | BBMM | 3-4 iyul, BBMM | Dəyirmi masa, müzakirələr |
| **20.** | “Azərbaycan multikulturalizmi” dərsliyinin təqdimatı | BBMM | 17 iyul, Azərbaycan Dillər Universiteti (ADU) | Təqdimat |
| **21.** | “Mədəniyyətlərarası dialoq dini və mədəni müxtəliflik kontekstində - Azərbaycanda dinlərarası harmoniya” adlı V Beynəlxalq multikulturalizm yay məktəbinin başa çatması ilə bağlı mətbuat konfransı | BBMM, UNESCO Aladdin layihəsi, Erasmus+ | 30 iyul, BBMM | Mətbuat konfransı |
| **22.** | Fransa Yəhudi İcmasının nümayəndələri ilə görüş | BBMM, “Valiske Assosiasiyası” | 2 avqust, BBMM | Dəyirmi masa |
| **23.** | “İndoneziyada və Azərbaycanda multikulturalizm: müqayisəli araşdırma” adlı seminar | BBMM, ADU, İndoneziyanın Azərbaycandakı Səfirliyi | 11 sentyabr, ADU | Seminar |
| **24.** | “Azərbaycan multikulturalizmi” dərsliyinin təqdimatı | BBMM | 22 sentyabr, BBMM | Təqdimat |
| **25.** | “Şərq-Qərb əlaqələrinin multikultural tədqiqi” adlı dəyirmi masa | ADU, BBMM | 9 oktyabr, ADU | Dəyirmi masa |
| **26.** | “Azərbaycan multikulturalizmi” dərsliyinin təqdimatı | BBMM, Naxçıvan Müəllimlər İnstitutu | 24 oktyabr, Naxçıvan Müəllimlər İnstitutu | Təqdimat |
| **27.** | "Ədəbiyyatda və incəsənətdə multikulturalizm və tolerantlıq" adlı elmi sessiya | AMEA, BBMM, BF | 1 noyabr, AMEA | Elmi sessiya |
| **28.** | 16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə Milli Məclisin deputatları, diplomatik korpusun nümayəndələri, elm, mədəniyyət xadimləri və dini icmaların təmsilçiləri ilə birlikdə beynəlxalq tədbir | BBMM | 16 noyabr, Bulvar Otel | Tədbir |

| | | | | |
|---|---|---|---|---|
| **29.** | "Gənclər arasında tolerantlıq, humanizm və sülhsevərlik prinsiplərinin təbliğ edilməsi" mövzusunda konfrans | Gənclər və İdman Nazirliyi, BBMM | 22 noyabr, Park İnn otel | Beynəlxalq konfrans |
| **30.** | Bakıda keçirilən "Gənclər arasında tolerantlıq, humanizm və sülhsevərlik prinsiplərinin təbliğ edilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçıları ilə görüş | BBMM, Gənclər və İdman Nazirliyi | 23 noyabr, BBMM | Dəyirmi masa |
| **31.** | "Azərbaycan multikulturalizm modeli: etnomədəni müxtəliflik" mövzusunda konfrans | Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, BBMM, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) | 28 noyabr, Bakı | Beynəlxalq konfrans |
| **32.** | İsveçin Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Goranssonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş | DQİDK, İsveçin Azərbaycandakı Səfirliyi, BBMM | 28 noyabr, BBMM | Görüş |

**Qeyd:** Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) və Xarici İşlər Nazirliyinin nəzdindəki Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) birgə həyata keçirdikləri qonaq elmi işçilərin mübadiləsi proqramı çərçivəsində Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarından olan 2 xarici ekspert BBMM-də müxtəlif mövzulara dair elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmuşlar.

## Xarici ölkələrdə

| **№** | **Tədbirin adı** | **Təşkilatçılar** | **Tarix və məkan** | **Qeyd** |
|---|---|---|---|---|
| **1.** | "Azərbaycanda dinlərarası harmoniya: İslam və lüteranlıq" mövzusunda dəyirmi masa | XİN, BBMM, DQİDK, AMEA | 27 fevral, Berlin, Drezden | Dəyirmi masa |
| **2.** | UNESCO Beynəlxalq Təhsil Bürosunun dəvəti ilə Azərbaycan Dillər Universitetinin müəllimi Anar Nağıyev, ABŞ, Atlantada keçiriləcək konfransda iştirak etmiş və mühazirə ilə çıxış edərək Bakı Beynəlxalq Multikulturalizm Mərkəzini təmsil etmişdir. | BBMM | 5-9 mart, Atlanta, ABŞ | Mühazirə |

| | | | | |
|---|---|---|---|---|
| **3.** | "Azərbaycan və İndoneziyanın sosial-fəlsəfi fikrində tolerantlıq və multikulturalizm" | BBMM, Yoqyakarta Universiteti | 22 mart, Yogyakarta Universiteti, İndoneziya | Mühazirə, təqdimat |
| **4.** | Gürcüstanda Tbilisi Dövlət Universitetinin professor, müəllim və tələbələri ilə görüş | Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi, BBMM | 31 mart, Tbilisi, Gürcüstan | Dəyirmi masa |
| **5.** | "Multikulturalizm və mədəniyyətlərarası dialoq: İsveçrə və Azərbaycan modelləri" | Azərbaycanın İsveçrədəki səfirliyi, BBMM, "Dinlər Evi – Mədəniyyətlərin Dialoqu" qurumu | 5 aprel, İsveçrə Dinlər Evi, Bern, İsveçrə | Beynəlxalq konfrans |
| **6.** | "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfrans | QMİ, BBMM, DQİDK | 27 aprel, Helsinki Finlandiya | Beynəlxalq konfrans |
| **7.** | "Azərbaycan Gənc Dostları klubu"nun üzvlərinin "Heydər Əliyev və dünya dinlərinin harmoniyası adlı konfrans" | BBMM, DQDİK, "Azərbaycanın Gənc Dostları klubu", Auqsburq Universiteti | 10-11 May, Auqsburq, Almaniya | Beynəlxalq konfrans |
| **8.** | "Azərbaycandakı multikulturalizm modeli" adlı seminar | BBMM, XİN, Azərbaycanın İspaniya Krallığındakı Səfirliyi, Rey Juan Karlos Universiteti | 24 may, Madrid, İspaniya | Beynəlxalq seminar |
| **9.** | "Azərbaycan Multikulturalizmi" fənninin dinləyiciləri və digər ixtisasdan olan tələbələr üçün "İslam Həmrəyliyinin Azərbaycan nümunəsi" adlı mühazirə və təqdimat (Dr. Sofiya Şiqayeva) | BBMM | May, Sofiya Dövlət Universiteti, Sofiya, Bolqarıstan | Mühazirə, təqdimat |
| **10.** | ABŞ-dan olan jurnalist və siyasi araşdırmaçı Peter Teys Bosniya Herseqovinanın Travnik Universitetində Azərbaycan multikulturalizmi ilə bağlı mühazirə ilə çıxış edib | BBMM | 24 oktyabr, Bosniya və Herseqovina | Mühazirə, dəyirmi masa |

## II bölmə

## Tədris istiqaməti

2017-ci ildə ölkəmizdəki və xarici ölkələrdəki ali təhsil müəssisələrdə bakalavriat səviyyəsində **"Multikulturalizmə giriş"**, magistratura səviyyəsində isə "**Azərbaycan multikulturalizmi"** adlı fənlər tədris proqramlarına daxil edilmişdir. 2017-ci ilin sonunadək "Azərbaycan multikulturalizmi" fənni dünyanın 17 və Azərbaycanın 36 nüfuzlu ali məktəbində tədris olunub. "Azərbaycan multikulturalizmi" fənninin tədris olunduğu yerli ali təhsil ocaqları:

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyası, Qərb Universiteti, Bakı Dövlət Universiteti, Milli Konservatoriya, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Tibb Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dillər Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Lənkəran Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Dövlət Sərhəd Xidməti Akademiyası, Azərbaycanın Dövlət Dənizçilik Akademiyası, Dövlət Gömrük Xidmətinin Akademiyası, Polis Akademiyası, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı İslam Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Mühəndislik Universiteti, Kooperasiya Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Rəssamlıq Akademiyası, Bakı Musiqi Akademiyası, Mingəçevir Dövlət Universiteti, Bakı Qızlar Universiteti, Avrasiya Universiteti, Odlar Yurdu Universiteti, Biznes Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi istər xarici ölkə universitetlərində, istərsə də ölkədaxili universitetlərdə "Multikulturalizmə giriş" və "Azərbaycan Multikulturalizmi" fənlərini tədris edəcək müəllimlərin hazırlanmasına xüsusi önəm vermiş, onların zəruri materiallar, məlumatlarla təmin edilməsini diqqətdə saxlamışdır. Bu məqsədlə tədrisi həyata keçirən müəllimlərin və dərslərin tədrisi gedişini yoxlayan monitorinq icraçılarının hesabatlarının nəzarətdə saxlanması mühüm vəzifə kimi qəbul edilmişdir.

*2017-ci ilin yaz və payız semestrlərində Azərbaycan multikulturalizmi" fənninin tədris olunduğu xarici ölkə Universitetləri:*

| № | Universitetin adı | Ölkə |
|---|---|---|
| **1.** | Müqəddəs Kliment Orxidski adına Sofiya Universiteti | **Bolqarıstan** |
| **2.** | Rusiyanın I Prezidenti Boris Yeltsın adına Ural Federal Universiteti | **Rusiya** |
| **3.** | Qadjah Mada Universiteti | **İndoneziya** |
| **4.** | Tbilisi Dövlət Universiteti | **Gürcüstan** |
| **5.** | Vrotslav Universiteti | **Polşa** |
| **6.** | Erciyes Universiteti | **Türkiyə** |
| **7.** | La Sapienza Universiteti | **İtaliya** |
| **8.** | Vürsburg Universiteti | **Almaniya** |
| **9.** | Malmö Universiteti | **İsveç** |
| **10.** | Hokkaydo Universiteti | **Yaponiya** |

**Qeyd:** Xarici ölkə universitetlərində "Azərbaycan Multikulturalizmi" fənninin tədrisi layihəsinin həyata keçirilməsi məqsədi ilə Bakı Beynəlxalq Multikulturalizm Avropa, Asiya və regionun bir sıra qabaqcıl ali məktəbləri ilə ikitərəfli danışıqlar aparmış, nəticə olaraq qarşılıqlı əməkdaşlıq protokolları imzalanmışdır. Görülən uğurlu işlərin nəticəsində hələ 2017-ci ilin birinci yarısında 5 nüfuzlu ali məktəbdə, 2017-ci ilin ikinci yarısında 5 nüfuzlu ali məktəbdə, təsdiq olunmuş proqramlarla "Azərbaycan Multikulturalizmi" fənni tədris olunmuşdur. 2017-ci il ərzində

həmin ali məktəblərdə təhsil alan müxtəlif ixtisasların tələbələri tədrisə cəlb olunmuş və sonda tələbələrin aldığı biliklər rəsmi qiymətləndirilmişdir. Xarici ölkə universitetlərində “Azərbaycan multikulturalizmi modeli” adlı fənnin tədrisinin davamı üçün yeni Universitetlərlə əlaqələr yaradılır. Artıq İsrailin Ariel Universiteti, Hindistanın Sri Sri Universiteti, Yaponiyanın Sapporo Universiteti də fənnin tədrisində maraqlı olduqlarını qeyd etmişlər. “Multikulturalizmə giriş” və “Azərbaycan Multikulturalizmi” fənnlərini tədris edəcək şəxslərin hazırlanması üçün Mərkəz tərəfindən mütamadi olaraq treyninq kursları təşkil edilmiş, treyninqləri uğurla bitirənlərə müvafiq “Sertifikat”lar verilmişdir. Xarici ölkə universitetlərində təşkil olunan monitorinqlər çərçivəsində Mərkəz tərəfindən müəyyənləşdirilən monitorinqi aparan şəxslər həmin universitetlərdə həm də birdəfəlik mühazirələr oxumuşlar. Qeyd olunan xarici universitetlərdə keçirilən birdəfəlik mühazirələr zamanı həmin təşkilatların rəhbərləri ilə ikitərəfli danışıqlar aparılmış, gələcəkdə də əməkdaşlığın davam etdirilməsi perspektivləri geniş müzakirə edilmişdir.

***Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri***

***IV Beynəlxalq Multikulturalizm Qış Məktəbi*** - 13-20 fevral 2017-ci il

- BBMM, BF və DQİDK-nin birgə təşkilatçılığı ilə 17 xarici ölkənin 29 xarici tələbə, Azərbaycanın ali təhsil müəssisələrindən 6 azərbaycanlı tələbə iştirak etmək hüququnu qazanmışdır. Azərbaycanın Qəbələ, Oğuz, Şəki, Qax və Bakı ərazilərində baş tutmuşdur.

***V Beynəlxalq Multikulturalizm Yay Məktəbi*** - 22-31 iyul 2017-ci il

- BBMM, UNESCO, Ələddin layihəsi, Erasmus + və “Azərbaycanın Gənc Dostları klubu”nun birgə təşkilatçılığı ilə 26 ölkədən 45 xarici tələbə və 5 Azərbaycanlı tələbənin iştirakı ilə Qəbələ, İsmayıllı, Şəki, Qax və Bakı ərazilərində baş tutmuşdur.

İl ərzində Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbinin iştirakçısı olan tələbələr “Azərbaycanın Gənc Dostları klubu” sıralarına yazılmış, müntəzəm olaraq yazılar və məqalələrlə çıxış etmişlər.

## III bölmə
## İnformasiya təminatı və nəşrlər

Hesabatın bu bölməsində "İslam Həmrəyliyi ili" çərçivəsində multikulturalizmin Azərbaycan modelinin öyrənilməsi və təbliği ilə bağlı yaradılan elektron məlumat mənbələri, nəşr edilən kitab və jurnallar, ölkədaxili və xarici mətbuatda dərc edilən məqalələr, keçirilən təqdimatlar haqda informasiya təqdim olunur.

### Ölkə daxilində

| Sıra №-si | Vəsaitin adı | Vəsaitin növü | Hazırlayan qurum və tarix | Qeyd |
|---|---|---|---|---|
| **1.** | "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" adlı kitab (Azərbaycan, rus və ingilis dillərində) | Kitab | Fevral-dekabr, BBMM, Azərtac | |
| 2. | "Azərbaycanda yaşayan xalqların atalar sözləri və deyimləri" kitabı | Kitab | 1may, BBMM | |
| 3. | Mübariz Xəlilovun "Albaniyanın tarixi, etno-mədəni hüdudları: qərb istiqaməti" kitabı | Kitab | 16 avqust, BBMM və Bilik Fondu | 3 dildə (Azərbaycan, rus, ingilis) nəşr olunmuşdur |
| 4. | Ali məktəblər üçün nəzərdə tutulan "Azərbaycan multikulturalizmi" dərsliyi | Dərslik | 22 sentyabr, BBMM | |
| 5. | "Alban apostol kilsəsi – tarixi baxış", VI dəyirmi masa | Virtual dəyirmi masa materialı, kitab | 30 noyabr, BBMM | 3 dildə (Azərbaycan, rus, ingilis) nəşr olunmuşdur |

| | | | | |
|---|---|---|---|---|
| 6. | “Multikulturalizm” jurnalının 2017- ci il üçün 1,2,3,4-cü sayları | Jurnal | Il ərzində, BBMM, AMEA, AYF | Jurnalın nəşr olunmasında məqsəd Azərbaycanda əsrlərdən bəri formalaşmış tolerantlıq ənənələrini təbliğ etmək |

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci ı il ərzində fəaliyyəti, layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər müntəzəm olaraq Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti, İTV və Kultura plus internet telekanalı tərəfindən işıqlandırılmışdır. Bundan əlavə ATV, Xəzər, Space, Lider, CBC Azərbaycan, Mir telekanallarında Mərkəzin həyata keçirdiyi tədbirlə bağlı toplam 78 televiziya xəbərləri hazırlanıb və nümayiş olunmuşdur.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTac) il ərzində toplam olaraq 122 dəfə BBMM-in ölkə daxilində, xaricdə keçirdiyi konfranslar, görüşlər - bütün tədbirlər haqda məlumatları, yerli və xarici alimlərin, mütəxəssislərin müsahibələrini, təhlillərini davamlı olaraq dərc edərək yaymışdır.

2017-ci il ərzində ölkə ərazisində yayılan “Azərbaycan”, “Yeni Azərbaycan”, “Bakinskiy raboçiy”, “İki Sahil”, "525-ci qəzet” və “Kaspi” qəzetlərində toplam 256 məqalə dərc olunmuş, eləcə də il ərzində toplam 172 məqalə "İsmayıllı xəbərləri", Yevlaxın "Kür" qəzeti, "Lənkaran" qəzeti, "Astara" qəzeti, "Mingəçevir işıqları" qəzeti, "Yeni Tərtər" qəzeti, Qubanın "Şəfəq" qəzeti, "Xaçmaz" qəzeti, "Qusar" qəzeti, "Gəncənin səsi" qəzeti, "Qobustan" qəzeti və.s kimi 44 regional qəzetdə dərc olunmuşdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci il ərzində fəaliyyəti barədə bütün informasiya məlumatları Mərkəzin http://multikulturalizm.gov.az rəsmi saytında və https://www.facebook.com/multiculturalismbaku/ Facebook səhifəsində yerləşdirilib.